**Xalq qəzeti.**-2019.-25 oktyabr.-№237.-S.4.

# İlham Əliyev: Mən Prezident kimi ilk illərdən iqtisadi müstəqilliyə nail olmaq üçün çalışmışam

**Tahir Aydınoğlu**

**Ümummilli lider Heydər Əliyev Azərbaycanın dövlət müstəqilliyinin bərpa edilməsini zəmanəmizdə xalqımızın ən böyük, ən qiymətli tarixi nailiyyəti kimi dəyərləndirirdi. Ulu öndər neçə-neçə nəsilin azadlıq və istiqlal arzusuna talenin nadir bəxşişi olan dövlət suverenliyimiz ilk addımlarında yenidən itirilmək təhlükəsi ilə üzləşəndə xalqımızın istək və tələbi ilə hakimiyyətə qayıdıb xilaskarlıq missiyasını yerinə yetirərkən demişdi: "Heç kəsin şübhəsi olmasın ki, ömrümün bundan sonrakı hissəsini harada olursa-olsun, yalnız və yalnız Azərbaycan Respublikasının müstəqil dövlət kimi inkişaf etməsinə həsr edəcəyəm".**

Müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyev milli istiqlal tariximizin yeni dövrünə dəyər verərkən bildirirdi ki, müstəqilliyi qorumaq onu qazanmaqdan çətindir: "Biz müstəqil Azərbaycan kimi əzəmətli bir abidənin təməlini qoyuruq, onu qururuq, yaradırıq. Onu indiki nəsillər üçün yaradırıq, gələcək nəsillər üçün yaradırıq. Bizim üzərimizə şərəfli vəzifə düşübdür və bunu layiqincə yerinə yetirməliyik". Ulu öndər ölkədə möhkəm sabitlik yaratmaq, xalqı öz taleyinə sahib çıxmağa səfərbər etmək və əsaslı islahatlar yolu ilə gənc müstəqil dövləti ümumi böhrandan çıxarıb dirçəliş və növbəti yüksəliş yoluna çıxartdı. Böyük rəhbər hər yerdə, dönə-dönə xatırladırdı: "İqtisadiyyatı güclü olan ölkə hər şeyə qadirdir!"

Bu sözlərin deyildiyi vaxtdan 26 il keçəndən sonra-- bugünlərdə Azərbaycanın iqtisadi müstəqilliyinin daha da möhkəmləndirilməsinin önəmini yenidən vurğulayan Prezident İlham Əliyev iqtisadiyyat naziri təyin etdiyi Mikayıl Cabbarovu qəbul edərkən amal və əməllərini sədaqətlə davam etdirdiyi ümummilli liderin məhz həmin qənaətini xatırlatdı. "Hələ ulu öndər Heydər Əliyev vaxtilə demişdir ki, iqtisadiyyatı güclü olan ölkə hər şeyə qadirdir. Bu, tam həqiqətdir və bu gün bizim siyasi müstəqilliyimizin təməlində iqtisadi müstəqillik dayanır. Mən bunu öz çıxışlarımda dəfələrlə demişəm".

İqtisadiyyat naziri ilə söhbətdə ölkənin çağdaş həyatında uğurla davam edən hərtərəfli yeniləşmə və yüksəliş mərhələsinin növbəti hədəflərindən söz açan dövlət başçısı siyasi müstəqilliyimizin iqtisadi müstəqilliklə möhkəmləndirilməsi sahəsində gerçəkləşdirilmiş tarixi uğurlara toxunaraq qeyd etdi ki, əgər bizim iqtisadiyyatımız kənar dairələrdən asılı olsaydı, biz uğurlu siyasi kurs icra edə bilməzdik. Bizim siyasi müstəqilliyimizin, o cümlədən xarici siyasətdə apardığımız prinsipial mövqeyin əsas baza prinsipi iqtisadi müstəqilliyimizdir: "Mən Prezident kimi ilk illərdən iqtisadi müstəqilliyə nail olmaq üçün çalışmışam, müvafiq göstərişlər vermişəm. Bu gün Azərbaycan iqtisadi baxımdan, o cümlədən siyasi baxımdan heç kimdən, heç bir ölkədən asılı -deyil, prinsipial müstəqil siyasət aparır, o siyasət ki, Azərbaycan xalqının maraqlarını təmin edir".

Bu yerdə möhtərəm dövlət rəhbərinin 15 il əvvəl – Prezident kimi fəaliyyətə başlamasından bir il sonra hökumətin iclasında dediyi tam eyni məzmunlu sözləri yada düşür: "Bu gün Azərbaycan tam mənada müstəqil siyasət aparır, heç kimdən asılı deyil, heç bir başqa ölkədən asılı deyil və öz siyasətini yalnız və yalnız Azərbaycan xalqı naminə aparır". Ölkəyə rəhbərliyinin ikinci müddətinin andiçmə mərasimində isə Prezident İlham Əliyev ümummilli lider Heydər Əliyevin dövlət müstəqilliyini qorumaq, möhkəmləndirmək və daimiləşdirmək xəttinə sədaqətini belə ifadə etmişdi: "Müstəqil siyasət, milli maraqlarımızın qorunması, milli ləyaqət, milli qürur, milli və dini tolerantlıq-- budur bizim uğurlarımızın əsas şərtləri. Bizim siyasətimiz açıqdır, aydındır. Bir daha demək istəyirəm ki, bu siyasətin əsas təməl prinsipləri Azərbaycan dövlətinin milli maraqlarının qorunmasıdır və bu işdə biz böyük uğurlara nail ola bilmişik".

Yeni iqtisadiyyat nazirinə tapşırıq və tövsiyyələrini verən Prezident İlham Əliyev ulu öndərin vəsiyyətlərini xatırladaraq söylədi ki, Azərbaycan xalqının maraqlarını, dövlət maraqlarını bütün beynəlxalq tribunalardan müdafiə etmək üçün, hər seydən əvvəl, bizim iqtisadi imkanımız olmalıdır. Ölkə rəhbəri sözünün davamında bildirdi ki, biz indi dünyada gedən proseslərə diqqətlə baxanda görürük ki, başqa dövlətlərdən, yaxud da beynəlxalq maliyyə qurumlarından asılı ölkələr müstəqil siyasət apara bilmir, böyük ölkələrin girovuna, alətinə çevrilir. Belə ölkələrin rəhbərliyinə bəzi hallarda öz xalqının, milli maraqlarının ziddinə təzyiq edilir və onlar buna davam gətirə bilmirlər.

Bu məqamda Azərbaycan rəhbəri böyük güclərin hökmünə əsaslanan dünya siyasətinin ədalətsizliyinə etirazını bir daha cəsarətlə açıqladı: "Bizə də təzyiq göstərilir və mənim Prezident kimi fəaliyyətimin bütün dövrlərində göstərilən təzyiqlə üzləşmişik. Ancaq buna davam gətirə bilmişik, müqavimət göstərmişik, öz sözümüzü demişik və heç bir təzyiq, heç bir hədə-qorxu, heç bir təhdid bizim siyasətimizə təsir edə bilməz. Nə üçün? İlk növbədə, biz xalqın dəstəyinə arxalanırıq".

Prezident İlham Əliyev suveren Azərbaycan naminə əsl müstəqil siyasət yeridən ölkə rəhbərliyinə xalqın bəslədiyi böyük inam və etimadın dövlət müstəqiyinin qorunub möhkəmləndirilməsində iqtisadi müstəqillik amili ilə yanaşı, önəmli rol oynadığına toxunaraq qeyd etdi ki, son rəy sorğuları bizim hökumətimizə ictimai dəstəyin nə qədər yüksək olduğunu göstərir. Davos Ümumdünya İqtisadi Forumunun son hesabatında da Azərbaycan hakimiyyətə olan inam baxımından dünya miqyasında ön sıralardadır: “Ona görə iqtisadi müstəqillik bizim üçün əsas vəzifə olaraq qalır. Buna nail olmaq üçün biz gələcək illərdə çox böyük səylər göstərməliyik”.

İqtisadi müstəqilliyin beynəlxalq aləmdə Azərbaycanın maraqları uğrunda mübarizədə müstəqil siyasət üçün mütləq güc amili olduğunu söyləyən dövlət başçısı xalqın rifahının yüksəldilməsinin də başlıca təminatı kimi iqtisadi qüdrəti, maliyyə imkanlarını artırmaq zərurətini vurğuladı: “Təbii ki, bu vəsait bizə bu il çox geniş və ciddi sosial paket icra etmək imkanı verdi. Deyə bilərəm ki, bu sosial təşəbbüsün analoqu bu günə qədər olmamışdır. Dörd milyon iki yüz min insan bu sosial təşəbbüsdən faydalanıb, minimum əməkhaqqı, təxminən, iki dəfə, minimum pensiya 70 faizdən çox artırılıb. Minimum pensiyanın alıcılıq qabiliyyətinə görə biz MDB məkanında birinci yerdəyik, Əlbəttə, əgər bizim maliyyə imkanlarımız olmasaydı, biz bunu edə bilməzdik”.

Bütün bunlara görə dövlət başçısı yeni iqtisadiyyat nazirinin nəzərinə çatdırdı ki, bizim iqtisadiyyatımız dayanıqlı olmalıdır. Bu ilin doqquz ayında ümumi daxili məhsul 2,5 faiz, qeyri-neft sektoru 3,5 faiz artıb. Bu, pis göstərici deyil. Kənd təsərrüfatı 7 faizdən çox, qeyri-neft sənayesi 15 faizdən çox artıb. Bu, çox müsbət hal olsa da elə etməliyik ki, bu inkişaf dayanıqlı olsun. Bu məqsədə çatmaq üçünsə bundan sonra da çox ciddi islahatlar aparılmalıdır.

Azərbaycanın dövlət başçısı Rusiyanın “Rossiya” telekanalının “Sabahın xeyir, Rusiya!” proqramına illər öncə verdiyi müsahibəsində demişdi: “Prezident elə bir vəzifədir ki, o, arzulamağa, təəssüflər olsun, çox az vaxt verir. Öz fəaliyyətinlə ölkənin rifahı, xalqın firavanlığı üçün yaxşı iş görmək, müstəqil dövlət kimi Azərbaycanı inkişaf etdirmək, möhkəmləndirmək, insanların daha yaxşı yaşaması, ölkənin iqtisadi və siyasi cəhətdən daha müasir dövlətə çevrilməsi, dünyada daha möhkəm mövqelər tutması üçün arzular, niyyətlər, məqsədlər vardır. Bu, mənim Prezident kimi, məqsədim və Azərbaycan xalqı qarşısında məsuliyyətimdir”.

Göründüyü kimi, şüurlu həyatını Vətəninin tərəqqisi, xalqının xoşbəxtliyi yolunda şam kimi əritmiş ümummilli lider Heydər Əliyevin ömrünün sona yaxınlaşdığı bir vaxtda aylarda “İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək”-- deyə Azərbaycanın ali idarəçiliyini etibar etdiyi siyasi varisi İlham Əliyev ötən 16 ildəki prezidentlik fəaliyyəti ulu öndərin tarixi etimad və gözləntilərini yüksək səviyyədə doğruldur, onun siyasətini sədqətlə və dönmədən davam etdirir.